# Həyat cəsurları sevir

## Yazıçı-jurnalist Hüseyn Əsgərovun yeni çapdan çıxmış kitabı haqqında bir neçə söz

**Bu günlərdə kitab rəfimdə, daha doğrusu iş masamın üstündə Əməkdar jurnalist, yazıçı-publisist Hüseyn Əsgərovun qələmi ilə ərsəyə gəlmiş kitabların biri də artdı: "Həyat cəsurları sevir". "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görmüş kitabın ilk nüsxəsini müəllifin mənə təqdim etməsini sevinc hissi ilə qarşıladım. Öncə onu demək istərdim ki, ömrünün kamillik dövrünü yaşayan Hüseyn Əsgərov 1977-ci ildə Azərbaycan Dövlət Universitetini jurnalistika ixtisası üzrə bitirib. Bir il Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetində, 23 il Naxçıvan Muxtar Respublikası Dövlət Teleradio Verilişləri Komitəsində, 1998-2001-ci illərdə həm də, "Xalq qəzeti"nin Naxçıvan Muxtar Respublikası üzrə xüsusi müxbiri, 2001-ci ildən 2011-ci ilədək Naxçıvan Muxtar Respublikası Ali Məclisində Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifələrində çalışıb. Hazırda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi mətbuat xidmətinin rəhbəridir. Bir neçə kitabın müəllifidir.**

İstedadlı şair-publisist Əbülfət Mədətoğlunun "Ustad həmkarım,dəyərli ziyalı və dostum Hüseyn Əsgərova ünvanladığım bir neçə söz"ü müəlliflə oxucu arasında körpü rolu oynayır, onları yeni kitabda diqqət yetiriləsi məqamlara istiqamətləndirir.

45-ilə yaxın bir müddətdə kütləvi informasiya vasitələrində çalışan, daha doğrusu fədakarlıq göstərən Hüseyn Əsgərov bu illər ərzində böyük oxucu və tamaşaçı sevgisi qazanmış bir ziyalı, sözün qədrini bilən, sözə qiymət verməyi bacaran jurnalist-publisist kimi tanınıb. Onun yazıları mövzu və janrından asılı olmayaraq öncə səmimiyyəti ilə diqqəti çəkir. Təbii ki, bu səmimiyyət müəllifin özündən gəlir, həm də oxucuya göstərilən səmimiyyətdir. Yeri gəlmişkən Hüseyn Əsgərov həm də bədii yaradıcılıqla məşğul olur, bir sıra dünya xalqlarının ədəbi nümunələrini dilimiz tərcümə edir. Tərcümələrdə diqqət çəkən başlıca nüanslardan biri, özünə də dəfələrlə dediyim kimi, improvizasiya elementləri ilə zənginləşdirməsi, oxucu üçün maraqli etməsidir.

### *Müəllifin oxuculara təqdim etdiyi*

növbəti kitabında müxtəlif bölmələrə ayrılmış yazılar özünə yer alıb. Bir məsələni də qeyd edək ki, Hüseyn müəllim son illərdə qədim Naxçıvanda səhiyyə sisteminin ilk dövrlərindən başlayaraq bu günə qədər keçdiyi inkişaf yolu ilə bağlı apardığı tədqiqatları özündə əks etdirən sanballı məqalələrin müəllifidir. Hüseyn müəllim həmin tədqiqatlarda ən kiçik detallara belə zaman aspektindən diqqət çəkir, səhiyyənin dünəni və bu gününü obyektivliklə müqayisə edir, gəldiyi qənaətləri ilə oxucuya dolğun təəssürat yaradır. Səhiyyənin suyundandır, ya nədəndir, hər dəfə də sözdən məlhəm kimi istifadə edib, sanki oxucunun yarasını sarıyır. Bu baxımdan kitabda özünə yer almış "Sınaq şüşəsində uşaq", "Səhhətimi öz həkimlərimizə etibar edirəm... nə Rusiya, nə İran", "Şəfqətlə müalicə, ömrün etibarı, yaşamaq ümidi", "Sağalan xəstənin təbəssümü onun ən böyük mükafatıdır" və digər yazıları diqqət çəkir. Onu Naxçıvan səhiyyəsindən bəhs edən "Naxçıvan səhiyyəsinin təşəkkülü, inkişaf və tərəqqisi" (həkim-kardioloq Süleyman Cəfərovla birgə) kitabı haqqında qeydlərini qələmə alan Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Şəhla Nəbiyevanın qənaəti ilə razılaşmamaq olmaz: "Muxtar respublika səhiyyəsinin tarixini, onun müxtəlif dövrlərə aid problemləri haqqında tarixi faktların publisistik ruhla oxucuya çatdırılması aşkar hiss olunur.

### *Hüseyn Əsgərov özünəməxsus dəsti-xətti ilə*

***durğunluq mərhələsi dediyimiz illərdən də əvvəl Naxçıvan səhiyyəsinin qarşılaşdığı problemlərin incəliklə təhlilini aparmaqla, həmin problemlərin doğurduğu fəsadların cəmiyyətə, insanlara vurduğu zərbəni də ictimai-siyasi hadisələr fonumda açıqlaya bilib. Bununla yanaşı, yazarların mövzu ilə bağlı uzun müddət axtarışları, mükəmməl mənbələrdən məlumatlar əldə etməsi də məqalələrin sanbalını və dəyərini artırıb. H.Əsgərovun və S.Cəfərovun muxtar respublika səhiyyəsinin dünəni və bu günü ilə bağlı qələmə aldıqları hadisələr, faktlar özündə aid olduğu zamanın abı-havasını yaşadır, müxtəlif vaxtlarda həyata keçirilən dövlət siyasətini əks etdirir. Bu isə müəlliflərin təcrübi fəaliyyətləri sayəsində kitabın yetkin, bitkin şəkildə təqdimatına imkan verir".***

Müəllifin səhiyyə maarifinə dair metodik vəsaitlərlə bağlı resenziyaları da maraq doğurur. Bu da onu göstərir ki, Hüseyn Əsgərov muxtar respublika səhiyyəsində həyata keçirilən tədbirlərə, səhiyyə işçilərinin öz təcrübələrini qələmə alaraq gənc həkimlərə və geniş oxucu kütləsinə təqdim etmələrinə həssas münasibətdədir.

### *Kitabı vərəqləyən oxucu*

***müəllifin uzun illər çiyin-çiyinə çalışdığı həmkarlarına böyük ehtiram göstərdiyini görür. Hüseyn Əsgərov muxtar respublikada yaşayıb-yaradan, mətbuatda özlərini təsdiq edən üç jurnalist haqqındakı yazılarda həmin insanların fəaliyyəti, qələmə aldıqları mövzulara obyektiv münasibətlərini və fərqli üslub tərzlərini, onların gənclərə yaxından köməklik göstərmələrini publisist dillə oxucuya çatdırır, bu yazılarda da müəllif səmimiyyəti, özünəməxsus və fərdi yaradıcılıq üslubu diqqət çəkir. Bu baxımdan müəllifin Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Şərur rayonunda çıxan "Şərurun səsi" qəzetinin redaktoru Elman Məmmədov haqqında qələmə aldığı "Jurnalist təkcə öz ömrünü yaşamır" oçerki maraqla oxunur:***

"- Yetmiş yaş... Qocalmaqmı, ucalmaqmı?

- Şərəfli qocalıq başqa şeydi. O ucalıqdı. Hər yeni yaş əwəlkinin hesabatıdır, - deyərdim, sabaha yeni baxışdı, yeni planlardı, arzulardı... Həyata sımsıx bağlanmaqdı. Yaşımdan qorxmuram. Axı əgər hələ də mənim enerjim, yaşamaq həvəsim, həyata və insanlara sevgim varsa, yaşın nə önəmi var? Mən hələ yaşamaq, işləmək, insanlara əl tutmaq istəyirəm. Gələcəyə xoş güman insan xislətində, insan təbiətindədir, insan qəlbinin əbədi, kövrək ehtiyacıdır. İnanmaq istəyirsən, özünü inandırırsan və inanırsan ki, hər şey yaxşı, daha gözəl alınacaq. İnsanlar bir-birilə daha mərhəm, daha yaxın olacaqlar. Nəvələrimin toyunu görüm, ətrafımdakı insanlar xoşbəxt olsunlar. O gün olsun ki, Qarabağımızın azad edildiyinin şahidi olum və inanıram ki, bu arzuma çatacağam".

Müəllif də onun arzularına qoşularaq müsahibəyə belə yekun vurur: "Niyyət olmasın, qismət olsunMənimsə qənaətim odur ki, müəllif əsl insan, daha dəqiq desək, jurnalist xarakterinin ən önəmli nüanslarını yaradıb.

Yeni nəşrin "Rəylər, resenziyalar, mülahizələr" bölməsində dostumuzun kitabları, tərcümələri barədə müxtəlif müəlliflərin ölkə və muxtar respublika mətbuatında dərc olunmuş yazıları toplanılıb. Həmin yazılarda diqqət çəkən məqamlardan başlıcası müəlliflərin bu təcrübəli və istedadlı qələm sahibi publisistik yaradıcılığına böyük ehtiramını görürük. "Bir damla mürəkkəb bir milyon insanı düşündürə bilər" adlı yazıda oxuyuruq: "Həssas oxucu duymamış deyil ki, bu bir damla mürəkkəbin arxasında İlahi söz dayanır. İçimizin duyğularını, düşüncələrini ifadə edən söz o mürəkkəblə yazılır. Bir qədər obrazlı desək, bir milyon insanı düşündürə bilən bir damcı mürəkkəb sözün şəklidir. Hüseyn Əsgərovun yaradıcılığından keçən başlıca xətt onun bu sözə çox həssaslıqla və ehtiramla yanaşması sözdən məlhəm kimi istifadə etməsidir. Bu da Hüseyn müəllimin qələmə aldığı istər sənədli, istər bədii yazılarının dəyərini artıran başlıca amildir".

Adıçəkilən bölmədə müəllifin Naxçıvanda yaşayıb-yaradan, ancaq ölkə səviyyəsində tanınan sənət adamları haqqında yazıları da özünə yer alıb. Bu yazılarda müəllifin həyat hadisələrinə əsl vətəndaşlıq və ziyalılıq prizmasından baxdığı bir daha təsdiqlənib.

Bir qədər də Hüseyn müəllimin hekayələri barədə. Yazının əvvəlində də dediyim kimi, onun, demək olar ki, çoxsaylı qələm nümunələrinin ilk oxucusu mən olmuşam; ona görə də hekayələri barədə geniş danışa bilərəm. Ancaq kiçik bir yazıda bu, mümkünsüzdür. Bunu nəzərə alaraq ən vacib məqamları oxucularımıza çatdırmaq istəyirəm: Hüseyn Əsgərov səmimi olduğu qədər ciddi, ciddi olduğu qədər yumoristdir.




### *Onun bəzi hekayələrini oxuyub başa çatanda*

düşünürsən ki, novella oxumusan. Elə ***kitabına ad verdiyi "Həyat cəsurları sevir" hekayəsi kimi. 1987-ci ildə qələmə alınan və həcmcə çox da böyük olmayan bu hekayənin adı oxucularda hansı hissləri oyadır? Hekayə boyu cərəyan edən hadisələrin sonu oxucu təbəssümü ilə başa çatsa da, onu həm də düşünməyə sövq edir. Eyni sözləri müəllifin nəsr və nəzmlə qələmə alınmış "Xalq mahnılarında səhiyyə motivləri" və "Xalq mahnılarında məhəbbət motivləri" haqqında da demək olar. Səhiyyə və məhəbbət motivləri ilə xalq mahnıları arasında aparılan paralellərin hamısı canlı həyat müşahidəsi kimi diqqəti cəlb edir. İstəmədən rastlaşdığımız neqativ halların bu səpgidə yumor materialına çevrilməsi, elə düşünürəm ki, yeni ədəbi priyom kimi təqdirolunasıdır.***

"Himeneyin məlumat kitabı" mövcud sosial-iqtisadi burulğanların insan xarakterində yaratdığı fəsadların bədii inikasıdır. Taksi sürücüsü hər gün müxtəlif adamlarla ünsiyyətdə olur. Dostluq və yoldaşlıqda sədaqətlidir. Bir gün həmin tanışlarından birini mötəbər bir idarəyə aparıb qayıtmasını gözləyir. Vəzifəyə təyin edilən tanışı geri dönərkən onu tanımır. Çünki artıq onu xidməti maşın gözləyir. Taksi şöferi sevinir ki, dostunu idarəyə rəis təyin ediblər, kədərlənir ki, bu təyinat dostunun yaddaş pozğunluğu ilə nəticələnib.

Hadisələrin sonrakı axarını oxucu diqqətlə izləyir, yaddaş pozğunluğunun qlobal xarakter daşıyıb-daşımadığı ilə maraqlanır və suallarına cavab tapır.

"Barmaqların əmcəklərdə sürəti" hekayəsində klassik üslubda yazan şairin uğursuzluqlarından bəhs olunur. Elə hey güldən-bülbüldən, eşqdən-məhəbbətdən yazır. Odur ki, şair yerinə qoyub ədəbi məclislərə dəvət etmirlər. Bura o şairlər dəvət olunur ki, yeni həyatı tərənnüm eləsinlər, iqtisadiyyatın yüksəliş dinamikasına mənəvi töhfələrini versinlər. Ona daim məsləhət görülür ki, başqaları kimi yaz, məsələn bax gör sağıcı necə vəsf olunub:

***İnəkləri bəsləyincə salamat***
***Gələnləri, görənləri qoyur mat.***
***Barmaqların əmcəklərdə sürəti,***
***Avtomatdır, avtomatdır, avtomat!***

Sonrakı misralar da avtomat kimi şaqqıldayır, atəş açır və oxucunu yeni-yeni əmək qələbələrinə səsləyir. "Mühazirəçilər qrupu" hekayəsində direktor pəltək olduğuna görə əməkdaşlar da ona oxşamağa çalışırlar. İdarəyə təyinatla işə göndərilən gənc kadr ilk günlər bunu anlamadığından çətinlik çəksə də, sonrakı aylarda nitqini "nizama salıb" vəzifə pillələri ilə irəliləyir. Onu da vurğulayım ki, Hüseyn müəllimin hər bir hekayəsi ustad Mirzə Cəlili yada salır. "Lalın dili necə açıldı?", "Metroda ehtiyatlı olun", "Himeneyin məlumat kitabı", "Mühazirəçilər qrupu" və digər hekayələri oxuyarkən müəllifin Mirzə Cəlil yaradıcılığına böyük məhəbbətini görürsən. "Diş ağrısı" hekayəsində olduğu kimi. Hekayənin süjet xətti olduqca sadədir. Həkimlər dişi çəkmir ki, sağlamdır, müalicədən sonra ağrısı keçəcək. Amma ağrı da səngimir. Bir tanışı ona yardımçı olur, dəlləyə ürcah edir, dəllək də salamat dişi çəkib qoyur yerə. Bununla ağrı aradan qalxır, lakin təhkiyyəçini başqa bir ağrı-mənəvi ağrı gözləyir. Həmin tanışı zəng edir ki, qardaşı oğlu filan idarədə işləyir. Müdiri onu gözümçıxdıya salıb, it kimi qapır. Mümkünsə, onu müdirə tapşır. Təhkiyyəçi yazır ki, neynim, dişimin düzəlməsində onun rolu vardı, işinin düzəlməsinə də mən yardımçı olmalıydım. Odur ki, zəng elədim. İndi özüm də razıyam, tanışım da. Çünki həmin müdir tanışımın qardaşı oğlunu ta it kimi qapmır. Beləliklə, Mirzə Cəlil ənənələrinə sədaqət hekayənin ruhunu təşkil edir.

Bir məsələni xüsusi qeyd etmək lazımdır ki, yaradıcılığı boyu Hüseyn müəllim bu böyük yazıçı haqqında onlarla dəyərli yazı ərsəyə gətirib, həmin yazılar müxtəlif mətbuat orqanlarında işıq üzü görüb. Bununla da Mirzə Cəlil dünyasının açılmayan qatları ilə mirzəcəlilsevərlər tanış olmaq imkanı qazanıblar. Həmin yazıların təməlindən bir qırmızı xətt keçir: Böyük ustadın yaradıcılıq dünyası əbədiyaşardır, bu gün üçün də aktualdır, sabah üçün də. Bu əbədiyaşarlığı Mirzə Cəlilə qazandıran isə onun əsərlərindəki Vətən, millət, dil yanğısıdır. Və bu yanğı dünyasının coğrafiyası da, təəssüf ki, genişdir. Onu da deyim ki, həmin yazılar mirzəcəlilsevərlər tərəfindən yüksək qarşılanıb. Bütün bunlar onu deməyə əsas verir ki, Cəlil Məmmədquluzadə irsi Hüseyn Əsgərovun təkcə stolüstü kitabı yox, onun mənəvi silahdaşıdır. Mirzəcəlilsevərlər bu dahi yazıçı, dramaturq və ictimai-siyasi xadimin, kiçik hekayələr ustası və satirik jurnalistin - ən böyük Azərbaycanşünasın təkcə ölkəmizdə deyil, bütöv Türk dünyasında yüzlərlə tədqiqatçısı olduğunu, onun yaradıcılığının müxtəlif yönlərdən tədqiq edildiyini, həmin tədqiqatların ədəbiyyatşünaslıq elminin sərvətinə çevrildiyini bilməmiş deyillər və mən yenə xatırlatmaq istəyirəm ki, Hüseyn Əsgərov onun tədqiqatçısı deyil. Ancaq Mirzə Cəlil haqqındakı bu kitab elm adamlarımıza yeni tədqiqat obyekti vermək baxımından böyük əhəmiyyətə malikdir".

***P.S. "Həyat cəsurları sevir" kitabı jurnalist Səməd Canbaxşıyevin "Ön sözü" ilə açılır. Hüseyn Əsgərovu yaxından tanıyanlar "Ön söz"dəki təbiiliyi təsdiq edərlər: "Dəyərli oxucu! Bu kitabı əlində tutmusansa, deməli sən Hüseyn Əsgərovu tanıyırsan. Yəqin ki, Hüseyn müəllim özü bu kitabı sənə yaxını, tanışı, dostu, qohumu kimi hədiyyə edib. Əvəzində sən də bu kitabı yaxşıca oxu!!! Əgər oxusan, sözə qiymət verən biri kimi deyəcəksən:***

***- Yaman yazıb ha...".***


**Muxtar MƏMMƏDOV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Şərq qapısı" qəzetinin məsul katibi**